

*Məmməd İSMAYIL*

**Mən susum, deyərsən qalanını sən**
**Gözlərindən axan yağışla, Şuşa.**
**Keçib, bir şairə yalanını sən**
**Bağışlaya bilsən, bağışla, Şuşa!**

**Allaha, dilinin duasına yox,**
**Haçansa verdyin sözə yenildin.**
**On - on beş erməni dığasına yox,**
**Tarixə saldığın izə yenildin.**

**Yenildin! Əlinə keçməz girəvə**
**Tarixin təkəri geri gedəndə.**
**Qafiyə olanda zirvəyə kirvə,**
**Kirvəni zirvəyə şərik edəndə...**

**Verdin əllərinlə düşmən əlinə,**
**Gələcək keçmişin izinə gəlir.**
**Qönçələr gül açır kimin dilinə,**
**Şuşada yaz kimin üzünə gəlir?**

**Bir ümid şamı var hər bir millətin.**
**Ölürsə o ümid, sönürsə o şam,**
**İnamın ayaqda qalması çətin...**
**Tale zirvəsində o şamdın, Şuşam.**

**Yenilmək Tanrıdan tərs şapalaqdı,**
**Baharı saralan kövşənə yazıq...**
**Bir xalqın başında Şuşa papaqdı,**
**Başından papağı düşənə yazıq...**

**Ucalmaq yeriymiş Şuşa, ucalmaq!..**
**Orda həsrət yerin, yer həsrətinmiş.**
**Eh hardan biləydim zirvədə qalmaq**
**Zirvəyə çıxmaqdan daha çətinmiş..**

**Ölümə gəl deyir həyatın ”və”si**
**Nə həyat qanadı qırılmış quşa?!**
**Dağın zirvəsində dərdin zirvəsi,**
**Hər yandan görünən faciə- Şuşa!**

**Tanrım, bu nə keçmiş, nə gələcəkmiş,**
**Ona da ləkədi, buna da ləkə...**
**Yurdun sinəsində Şuşa ürəkmiş**
**Yaşaya bilərmi ürəksiz ölkə?!**

Ədalət.- 2020.- 9 may. S. 9.